## Vergi borclarının idarə olunması üçün yeni mexanizm tətbiq oluna bilər

Müştərinin maliyyə resursları dərindən təhlil edilmədən, üstəlik möhkəm girov təminatı olmadan verilən kredit məbləğləri sonradan kredit verən orqanların, sözün əsl mənasında, başağrısına çevrilirdi. Bu zaman götürülən məbləğ vaxtında geri qaytarılmır, aylıq kredit ödənişləri gecikdirilirdi. Lakin son vaxtlar belə hallar kəskin şəkildə azalmışdır.

İndi banklar və digər kredit təşkilatları kredit verərkən müştərinin kredit tarixçəsini öyrənmək, onun intizamlı müştəri olub-olmadığını öyrənmək üçün Mərkəzləşdirilmiş Kredit Reyestrinə (MKR) sorğu göndərirlər. MKR 2005-ci ildə Mərkəzi Bankın nəzdində bank və bank olmayan kredit təşkilatlarının (BOKT) cari və potensial borcalanları haqqında etibarlı məlumat almaq, borcalanları bazar intizamına, borcalma nüfuzunun  qorunmasına təşviq etmək, banklar və BOKT-lər arasında riskləri azaltmaq məqsədilə yaradılmışdır.
2011-ci ilin avqust ayından başlayaraq BOKT-lərin MKR-ə qoşulma prosesinə başlanılmışdır. 2011-ci il ərzində lisenziyası olan 27 BOKT-dən 19-nun MKR-ə qoşulması təmin edilmişdir. İlin sonuna BOKT-lərin məcmu kredit portfelinin 90%-i reyestrin məlumat bazasında qeydə alınmışdır. Digər 8 BOKT-nin də MKR-ə qoşulması üzrə işlər davam etdirilir. İl ərzində reyestrdən 42 bank və 8 BOKT istifadə etmişdir. Dövr ərzində reyestrdə 503.163 sorğu, o cümlədən banklar və BOKT-lər tərəfindən 501.669 sorğu həyata keçirilmişdir. Ötən ilin eyni dövrü ilə müqayisədə MKR-ə edilən sorğuların sayı (2010-cu ildə 257.045) 1,96 dəfə artmışdır. Ötən il 1.494 şəxs (2010-cu ildə 298) öz kredit hesabını əldə etmək məqsədilə MKR-ə müraciət etmişdir. 2011-ci ilin sonunda MKR-də haqqında məlumat toplanan borcalanların sayı 1.179.711; kredit məlumatlarının sayı 2.890.334; qeydiyyata alınmış zaminlərin sayı isə 411.688 olmuşdur. Reyestrdə borcalanların həm aktiv, həm də tam ödənilmiş kreditləri haqqında məlumatlar saxlanılır. MKR-ə göndərilən məlumatların dəqiqliyinə görə məlumat təchizatçıları məsuliyyət daşıyırlar. Hər bir şəxsin öz haqqında toplanmış məlumatlardakı qeyri-dəqiqliyə görə şikayət etmək hüququ var. Banklar MKR-dən məlumatları real vaxt rejimində elektron formada, borcalanlar isə sorğu əsasında əldə edə bilərlər.
Onu da bildirək ki, bu sahədə beynəlxalq təcrübə həddən artıq rəngarəng olduğu üçün hər bir ölkə öz iqtisadi və bank sisteminin xüsusiyyətlərindən asılı olaraq, kredit məlumatlarının mübadiləsini özünəməxsus şəkildə həyata keçirir. Məsələn, vergi və kredit ödənişləri tarixçələrinin bir-biri ilə inteqrasiya edilməsi təcrübəsi dünyanın bir çox ölkələrində geniş yayılmışdır. Müvafiq təcrübə nəticəsində hər hansı ödəyici üzrə borcun yaranma riskinin olub-olmadığını bilmək mümkündür. Eyni zamanda vergi orqanları vergi ödəyicisinin kredit məlumatlarını təhlil etdikdən sonra vergi risklərini obyektiv qiymətləndirə bilirlər. Qarşılıqlı mübadilə nəticəsində banklar da müştərinin vergi borcları ilə bağlı vəziyyətini bilməklə onun ödəmə qabiliyyətinin olub-olmadığını qiymətləndirmək imkanına malikdirlər. Qarşılıqlı əməkdaşlıq hər iki tərəf üçün faydalıdır: hər hansı şəxsin bank ödəmələri əsasında onun vergi ödəyicisi kimi, vergi ödəmələri sayəsində isə bank müştərisi kimi nə qədər riskli olub-olmadığını təyin etmək mümkündür.
Mütəxəssislər bu mexanizmi müştəri risklərinin qiymətləndirilməsi baxımından ən əlverişli vasitə kimi qiymətləndirirlər. Müvafiq mexanizmin Azərbaycanda tətbiq edilməsi üçün potensial mövcuddur. Vergilər Nazirliyinin Vergi borclarının alınması işinin təşkili idarəsinin rəisi İlkin Vəliyevin fikrincə: «Biz üçüncü şəxslərdən nə qədər məlumat alsaq, bir o qədər də vergi ödəyicilərinin ödəmə qabiliyyəti ilə bağlı düzgün qərar verə bilərik.
Bildirək ki, son iki il ərzində vergi borclarının həcmi 43,5% azalıb.

**Arzu İBRAHİMOVA**